Azadlıq Radiosu

DÜNYA XƏBƏRLƏRİ

# Avropada ilk: Fransa parlamenti uşaqlar üçün sosial şəbəkələri qadağan etdi

2 dəqiqə öncə




Sosial şəbəkələr

Fransa parlamenti 15 yaşından kiçik şəxslərin sosial şəbəkələrdən istifadəsinə qadağa qoyulmasını təsdiqləyib. Bununla da Fransa Avropa İttifaqında (Aİ) belə bir məhdudiyyəti qanunvericilik səviyyəsində tətbiq edən ilk dövlət olacaq.

AFP agentliyinin məlumatına görə, qanun layihəsinin lehinə Milli Assambleyanın 279 deputatı səs verib, 81 nəfər isə bunun əleyhinə çıxıb. Sənəd daha əvvəl Senat tərəfindən də bəyənilib.

Bu addımı fəal şəkildə dəstəkləyən prezident **Emmanuel Makron** sosial şəbəkə hesabında yazıb ki, Fransa uşaqların və yeniyetmələrin qorunması məsələsində Avropada aparıcı qüvvədir. O, parlamentə təşəkkür edərək bildirib ki, qərar hələ

Konstitusiya Şurasında da təsdiq olunmalıdır. Makron daha əvvəl vurğulamışdı ki, bu qadağanın artıq sentyabrdan qüvvəyə minəcəyinə ümid edir.

> Je m'y étais engagé, c'est désormais voté : les réseaux sociaux seront interdits aux moins de 15 ans à la rentrée. Merci aux parlementaires. Au Conseil constitutionnel de statuer puis place à l'action pour rendre cette mesure concrète et protéger nos enfants en ligne. pic.twitter.com/jC79unxX67
>
> — Emmanuel Macron (@EmmanuelMacron) July 21, 2026

Yeni qaydalara əsasən, **sentyabrın 1-dən sosial şəbəkələrdə 15 yaşından kiçik şəxslər üçün yeni hesabların açılması qadağan edilməlidir.** 2027-ci il yanvarın 1-nə qədər isə fransalı yeniyetmələrin mövcud hesabları tamamilə bağlanmalıdır.

Buna baxmayaraq, qadağanın pozulmasına görə uşaqlar və ya onların valideynləri üçün sənəddə hər hansı cəza tədbiri nəzərdə tutulmayıb.

Ötən ilin sonunda **Avstraliya** 16 yaşından kiçik uşaqlar üçün sosial medianı qadağan edən ilk ölkə olub.

---

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur